# Batumidə Ulu öndərə həsr olunmuş fotosərgi

**Dünən Batumi Musiqi Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev 100: Firavanlığın memarı" adlı fotosərgi açılıb.**

Sərginin açılışında Acarıstan Muxtar Respublikası Hökumətinin rəhbəri Tornike Rijvadze, hökumət və parlament üzvləri, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, səfirliyin əməkdaşları, Batumidəki Baş konsul Pərviz İsmayılzadə və konsulluğun əməkdaşları, Türkiyənin Batumidəki Baş konsulu, diplomatlar, SOCAR-ın Batumidəki nümayəndəliyinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tornike Rijvadze jurnalistlərə müsahibəsində deyib ki, Batumidə Azərbaycan xalqının ümummilli lideri, gürcü xalqının da yaxın dostu Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərginin açılması bizim üçün çox qürurvericidir və mühüm əhəmiyyət kəsb edir.

***XQ***




Xalq qəzeti.- 2023.- 3 oktyabr.- S.5.